# Esad Cahangir, 55-ci gününüz mübarək!

*Fuad Cəfərli*



***...və hamımız diksindik. Çünki dünya möhtəşəm bir səsin doğuluşuna şahidlik etmişdi.Çoxdan gözləyən Zaman isə bizdən fərqli olaraq özünü hövləng yetirərək o, səsi məhəbbətlə bağrına basdı.***

***Eşitmək biz insanlara bəxş edilən fövqəllütflərdən birdir. Eşitmək deyiləndə ağıla ilk səs və ya səslər gəlir. Qılınc səsi, güllə səsi, zəncir səsi, addım səsi, kağız səsi, su səsig Yer üzündə səslər çoxdur. Lakin bir səs var ki, digərilərindən fərqlənir. Çünki onun missiyası tam fərqlidir, sözə xidmət elədiyinə görə alidir. Ali məqam isə hər kəsi seçmir. Mənə görə Yaradan eşqdə, eşq sözdə, söz isə səsdə gizlidir.***

Hər edibin bu dünyada özü sözü olur. Öz episentiri, öz zəlzələsi olur. Bu yaxınlarda Əsəd Cahangir öz epimərkəzindən ədəbiyyatımızı Qarabağ haqqında yazdığı "Səs" essesi ilə sözün mətn mənasında silkələdi. Mən bu zələzələni yumşaq desək, 1999-cu il İzmit, 2000-ci il Bakı zəlzələsi ilə müqayisə edərdim. Hər kəs zəlzələnin gücünü hiss etdi və hər kəs öz səhifəsinədən çölə çıxmağa məcbur oldu. Mənzərə isə vahimə ilə yanaşı heyrət yaradırdı insanda. Təəssüf ki, hər bir tarixi hadisə kimi Əsədin zəlzələsi də təlafatsız ötüşmədi! Ürəyinin divarı çat verənlər oldug

***Əsəd Cahangir deyəndə, adətən, ədəbi mətnlərin arxeoloqu ağla gəlirdi. Ancaq ədib "Səs" essesi ilə nümayiş etdirdi ki, əslində, o təkcə arxeoloq deyil, həm də akademik bir esseistdir.***

Mən illərlə Birinci Qarabağ müharibəsindən sonra niyə bəşəriyyətə təqdim ediləcək ədəbi mətnlər işləyə bilmədiyimizin izahını axtarmağa çalışdım. Düzdür, ədəbiyyatımızda Qarabağ mövzusuna hərə bir cür yanaşırdı. Ancaq bütün yanaşmalarda faciənin çiy olması açıq-aşkar hiss olunurdu. Mən bu sualın cavabını təxminən 2016-2017-ci illərdə bu izahda tapdım. Bizi hələ müharibənin faciəsi və faciənin fəlsəfəsini özümüzdə həll etməmişdik. Axı, həll prosesi normalda çox uzun çəkir. Yəni əvvəlcə birbaşa və ya dolayı yolla alınan psixoloji travmanı müalicə etməlisən. Sağalandan sonra isə



hadisələrə sağlam, məntiqi, soyuq nəzərlərlə baxmalısan.

Mən illərlə axtardığım ədəbi həlli – sağlam, məntiqi, soyuq baxışı məhs Əsəd Cahangirin Qarabağ haqqında yazdığı "Səs" essesində tapdım. Və bu məni çox xoşbəxt etdi.

Yuxarıda qeyd etdiyim kimi, hər kəsin həyatında xüsusi status verib aliləşdirdiyi bir mətn var. Quran, "Tövrat", "İncil", "Veda", "Upanişid"-larg Elə adamlar var ki, öz müqəddəs mtnlərini özləri yazırlar. "Səs" Əsəd Cahangirin müqəddəs mətnidir. Və ya Əsəd Cahangirin Səsi müqqədəs görmək iddiası, arzusu, istəyi var. Diqqətlə baxsaq, 101 kiçik mətnin xronoloji ardıcıllığı, sadəcə, şüurun deyil, təbii prosesin nəticəsidir. Lakin yazıçı 101 balaca mətndən ibarət "Səs"lə yalnız Allahın İslamdakı 101 adına işarə etməklə kifayətlənməyib. O həm də dolayı yol ilə Səsi rəqəmələrləmüqəddəsləşdirməyə cəhd edib.

Esseyə xüsusi ədəbi gözəllik verən amillərdən biri də müəllifin bir neçə ideoloji xətti uğurlu paralellərlə aparmasıdır. Ə.Cahangirin hadisələrə bütün yönlərdən – həm ədəb-bədii, həm mistik, həm dini, həm elmi, həm tarixi, həm də siyasi-coğrafi asperklərdən peşəkarlıqla baxması oxucunu sözün əsl mənasında heyrətləndirir. Ələxsus da, oxucu məlumatlıdırsa, bu şövq hər cümlədə bir az da yüksələn şkala ilə davam edir. Esseyə diqqət yetirdikdə birbaşa görünür ki, o, cansıxıcı terminlərin qəliblərindən uzaq, səlis və birbaşa anlaşılan azad dildə yazılıb. Əgər məndən xəbər alsalar ki, bütün zamanların ədəbi dərsliyinə düşəcək bir esse de. Heç şübhəsiz ki, "Səs" essesini ilk sıralarda deyərdim. Çünki bu esse yazıçının masterklassıdır. Masterklassların yeri isə yalnız dərsliklərdir. Əsəd Cahangir bu dünyaya "Səs"i yazmaq üçün gəlib və onu yazıb!

Gələk yazının əsas kəşfinin adına. Bu kəşf Azərbaycanın üç geokultroloji məkana bölünməsidir. Söz məkanı, səs məkanı, rəng məkanı. Esseist burada şəxsi fantaziyalardan, uydurmalardan yox, çox ciddi metafizik əsaslardan yola çıxıb. O, metafizik əsaslara görə insanla Tanrı arasında yaradıcılıq vertikalı var. Ən ucada söz, sonra səs, sonda isə rəng dayanır.

Tanrı "Ol" – "Kun" dedi və oldu, yaxud da, "Əvvəl Söz vardı." Qeyd olunan iki cümlə dünyanın qəbul etdiyi iki dini kitabda əksini tapıb. Yəqin ki, Əsəd Cahangir öz essesində sətiraltı telepatik ünsiyyətdən bəhs edir. O iddia edir ki, söz düşüncədir, dilə gələndə isə səsə çevrilir. Səsdən sonra isə rəngə çevrilir. Əslində, bu barədə dünyanı bir çox mistikləri, filosofları yazıb. Sadəcə, bu yanaşmaları milli çoğrafi, tarixi və kultroloji məkana tətbiq etmək yazıçının kəşfidir və ya taleyidir. Yazıçının təsnifatında:

***Naxçıvan, Göycə, Qazax, Axstafa, Borçalı Sözün;***
***Qarabağ Səsin;***
***Bakı, Şirvan, şimal və cənub isə Rəngin payına düşür.***

İlk baxışda burda bölgəçilik görünür. Əslində isə burda bölgü var, bölgə yoxdur. Nəinki yoxdur, hətta regionçuluğa qarşı böyük direniş var. Yazıçı Azərbaycanı söz, səs, rəng bölgələrinə bölsə də, demək istəyir ki, söz də, səs də, rəng də vahid bir gözəlliyi özündə ehtiva edir. Bir itlayan rəssamı deyib: "Gözəllik vahiddir, ora nə bir parça əlavə etmək, nə də ordan bir parça çıxarmaq olar." Siyasi dillə desək, Əsəd Cahangir, gəlin, xanlıqlar dövrü düşüncəsindən çıxaq deyib. Vahid bir Azərbaycan mədəniyyəti var və onun tərkib hissələri bir-biri üçün şərtdi, biri olmasa, digərləri də olmaz. Və hamısı birbirini eyni əhəmiyyətlə tamamlayır.

Əsrlər əvvəl söz haqqında "Hər şeydən ucadır sözün məqamı" deyə Nizami Gəncəvi münasibətini bildirmişdi. Bizim əsrdə isə Bəxtiyar Vahabzadə həm televiziydaverlişlərin birində çıxışı zamanı, həm də yazı masasının arxasında səsin daha ucada olduğunu bildirmişdi. Onun "Muğam" poeması Səsin tərənnümüdür. Qərb mistiklərini də burda xatırlamaq yerinə düşərdi. Misal üçün, MaksGendel Səsin yaradıcılıqda sözdən də, rəngdən də yüksəkdə olduğunu qeyd edir. Yəni bəstəkar öz ilhamını ilhamı şairdən və rəssamdan daha yüksək mərtəbədən alır.

*Gələk yazının əsas kəşfinin adına. Bu kəşf Azərbaycanın üç geokultroloji məkana bölünməsidir. Söz məkanı, səs məkanı, rəng məkanı. Esseist burada şəxsi fantaziyalardan, uydurmalardan yox, çox ciddi metafizik əsaslardan yola çıxıb. O, metafizik əsaslara görə insanla Tanrı arasında yaradıcılıq vertikalı var. Ən ucada söz, sonra səs, sonda isə rəng dayanır*

Səfəvi imperiyasında dövlətçilik ənənəsi söz, xanlıqlar da səs, çar və sovetlərdə isə rəngə uyğun gəlir. Əsəd Cahangirin fikrincə, indi yeindən sözə qayıdırıq.

Bu esseyə qarabağnamələr içərisində "Ən möhtəşəm "Qarabağname" adını verənlər oldu. Lakin adı çəkilən esse bir "Qarabağnamə"dən daha üstündür. Mənə görə "Səs" essesi indiyə kimi yazılmış və bundan sonra yazılacaq bütün "Qarabağnamə"lərə ön sözdür. Çünki bu esse milli, regional, ümumtürk, ümummüsəlman, planetar, kosmik çərçivələrdən tutmuş metafizik sonsuzluqlara qədər ucala bilmişdir.

***"Səs" təkcə öz müəllifinin deyil, bütün Azərbaycanın səsidir!***
***Haqqın səsidir!***
***Bütün dünya bu Səsi eşitməlidir və eşidəcək!***